UOT 378.

***Tahirə Ənvər qızı Quliyeva,***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# TƏLƏBƏLƏRDƏ MİLLİ-MƏNƏVİ MƏDƏNİYYƏTİN FORMALAŞDIRILMASI: MAHİYYƏTİ, MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

***Тахира Энвер гызы Гулиева***
*диссертант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# ФОРМИРОВАНИЕ НАЦИОНАЛЬНО-НРАВСТВЕННОЙ КУЛЬТУРЫ У СТУДЕНТОВ: СУЩНОСТЬ, ЦЕЛЬ И ЗАДАЧИ

***Tahira Anvar Guliyeva***
*doctorial student in the proqramme of PhD*
*Institute of Education of the Republic of Azerbaijan*

# FORMATION OF NATIONAL AND MORAL CULTURE OF STUDENTS: THE ESSENCE, PURPOSE AND OBJECTIVES

**Xülasə:** Milli şüur və milli mədəniyyət istənilən millətin ayrılmaz və çox mühüm əlamətidir. Milli şüur hər hansı etnik birliyə, dövlətə, dilə, mədəniyyətə və ənənələrə malik olan müəyyən maddi və mənəvi dəyərləri subyekt keyfiyyəti kimi özündə birləşdirməsi və ifadə etməsidir. Milli mədəniyyət milli özünüdərkin daşıyıcısı kimi çıxış edir. Daşıyıcı kimi onun rolu mənəvi tələbatları, stimulları və millətin sabitliyi mexanizmlərini və onun həyat fəaliyyətini, müvafiq səciyyəvi keyfiyyətlərini və funksiyalarını təmin etmək üçün əsasları formalaşdırmaqdan ibarətdir.
***Açar sözlər:*** *tələbələr, milli mədəniyyət, mənəvi mədəniyyət, milli şüur, milli-mənəvi mədəniyyət*

**Резюме:** Национальная и нравственная культура являются неотъемлемыми и важнейшими признаками любой нации, в том числе студентов. Национальное самосознание - это утверждение и выражение нацией себя в качестве субъекта определенных материальных и духовных ценностей, принадлежности к определенной этнической общности, государству, языку, культуре и традициям. В качестве носителя национального самосознания выступает национальная культура. Ее роль как носителя заключается в формировании основы для обеспечения возрастающих духовных потребностей, стимулов и механизмов устойчивости нации и ее жизнедеятельности, определенных специфических качеств и функций.
***Ключевые слова***: *студенты, национальная культура, нравственная культура, национальное сознание, национально-нравственная культура, формирование национально-нравственной культуры*

**Summary**: National and moral culture are integral and most important features of any nation that has been formed, including students. National self-consciousness is the statement and expression by the nation itself as a subject of certain material and spiritual values, belonging to a certain ethnic community, state, language, culture and traditions. As the carrier of national identity is the national culture. Its role as a carrier is to form the basis for ensuring the growing spiritual needs, incentives and mechanisms of the stability of the nation and its life activity, certain specific qualities and functions.
***Keywords:*** *students, national culture, moral culture, national consciousness, national moral culture, the formation of national moral culture*

Ölkəmizdə böyüməkdə olan nəslə, gənclərə xüsusi diqqət və qayğı vardır. Yeniyetmə və gənclər də Vətənin ləyaqətli övladları, nümunəvi oğul və qızları kimi yaşayıb fəaliyyət göstə-

rirlər. Hələ Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyəti illərində gənclər siyasəti dövlətin prioritet istiqamətlərindən birini təşkil edirdi. Ona görə də demək mümkündür ki, respublikamızda hazırda həyata keçirilən və yüksək göstəricilərlə müşayiət olunan gənclər siyasətinin əsası əslində XX əsrin yetmişinci illərində qoyulmuş, bu siyasət nəticəsində gənclərin öz imkanlarını, yaradıcı qabiliyyətlərini həyata keçirmələri üçün əlverişli şərait hökm sürmüşdür.

Azərbaycanda gənclər siyasətinin təşəkkül taparaq formalaşmasında və böyüyən nəslin cəmiyyətin həyatında yaxından iştirak etməsində Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan gənclərinin I Forumu mühüm əhəmiyyət daşımışdır. Bu forum Ulu öndərin gəncliklə bağlı strategiyasının ilk təntənəsi idi.

1999-cu ilin iyulunda Ümummilli lider Heydər Əliyev "Dövlət gənclər siyasəti haqqında" fərman imzalandı. Bu fərmanın tələbləri nəzərə alınmaqla hazırlanmış tədbirlər planında gənclər siyasətinin başlıca istiqamətləri

öz ifadəsini tapdı. Gənclərin Vətənə layiq insanlar kimi yetişmələri üçün onların hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalarına nail olmaq - Gənclər siyasətinin mühüm məqsədlərindəndir.

Gənclər siyasətinin əsasını azərbaycançılıq ideologiyasından irəli gələn dövlətin inkişafı, xalqımızın rifahının yüksəldilməsi istiqamətində fəaliyyət və tolerantlığın inkişaf etdirilməsi təşkil edir.

Ümummilli liderimiz Gənclər siyasətini nəzərdə tutaraq deyirdi: "Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt Vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli dəyərlərimizin əsasında tərbiyələnməlidirlər.

Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz".

Ulu öndərin 2 fevral 1997-ci il tarixdə imzaladığı fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilmişdir. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan haqqında danışılan siyasi kurs hazırda dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycanda gənclər siyasəti gənclərin hərtərəfli və ahəngdar inkişafına, cəmiyyət həyatında yaxından iştirakına, fəal vətəndaşlıq mövqeyi qazanmasına öz köməyini göstərir.

Gənclər siyasəti gənclərin sağlamlığı, təhsili, tərbiyəsi, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, cəmiyyətin ayrı-ayrı sahələrində yaxından iştirakı kimi mühüm məsələləri özündə birləşdirir. Azərbaycan gəncliyi müasir mərhələdə cəmiyyətin inkişafında fəal sosial təbəqə rolundadır. Onlar demokratikləşmə prosesində fəal iştirak edir, mədəniyyət, incəsənət, elm və başqa sahələrdə uğurlara imza atır, dövlətçilik ənənələrini uca tutur, çoxşaxəli islahatların reallaşdırılmasa öz töhfələrini verirlər.

Yeni pedaqoji təfəkkür böyüyən nəsildə, gənclərdə, o cümlədən tələbələrdə milli-mənəvi mədəniyyətinin formalaşdırılmasını mühüm tələb kimi irəli sürür. Bu sahədə təhsil müəssisələrinin, o cümlədən institut və universitetlərin üzərinə mühüm vəzifələr düşür. Ümummilli liderimiz Heydər Əliyevin sözləridir: "Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır... İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsəd Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır".

Ulu öndər milli-mənəvi, əxlaqi dəyərlərimizi və adət-ənənələrimizi qoruyub saxlamağı son dərəcə vacib hesab edirdi. "Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı"nda deyilir: "Biz öz milli-mənəvi, və adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi qoruyub saxlamağı bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik" (1).

Gənclər, o cümlədən tələbələr cəmiyyətimizin əsas sosial qruplarından biridir. Onlar nəinki özlərindən böyüklərin təşkil və iştirak etdikləri tədbirlərə qoşulurlar, özləri həmçinin ölkədə baş verən ictimai proseslərdə fəallıq göstərirlər. Ona görə də fəal həyat və vətəndaşlıq mövqeyinə malik şəxsiyyətlərin tərbiyə olunması qayğısına qalmalıyıq. Bu mənada tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması

diqqət mərkəzində dayanmalıdır. Bu işin uğurlu olmasından ötrü milli şüur və mənəvi mədəniyyət barədə aydın təsəvvürə malik olmağımız və həmin istiqamətdə işlər aparılmalıdır.

İlk növbədə "Azərbaycan dilinin izahlı lüğəti"nin imkanlarından faydalanaraq, nəzərdən keçirdiyimiz problemlə bağlı olan bəzi anlayışların mahiyyətinə aydınlıq gətirək: "Mənəvi – insanın daxili, ruhi aləmi ilə bağlı olan, mənəviyyatla əlaqədar; batini, qeyri-cismani, qeyri-maddi (1, III c., s. 338).

Mənəviyyat - insanın mənəvi keyfiyyətləri, normaları; yüksək əxlaq (1, III c., s. 339).

Milli – 1. millətə aid olan, millətə məxsus olan. 2. hər hansı millətin səciyyəvi xüsusiyyətlərini ifadə edən. 3. Bir ölkəyə, dövlətə aid olan (1, III c., s. 368-369).

Mədəni – 1. mədəniyyətcə çox inkişaf etmiş, mədəniyyətin yüksək dərəcəsində olan. 2. mədəniyyətlə bağlı olan, mədəniyyətə aid olan (1, III c., s. 316).

Mədəniyyət – 1. İnsan cəmiyyətinin istehsal sahəsində, ictimai və mənəvi həyatda əldə etdiyi nailiyyətlər məcmusu. 2. Hər hansı bir xalqın və ya sinfin müəyyən dövrdə əldə etdiyi belə nailiyyətlərin səviyyəsi. 3. Savadlılıq, elmilik, biliklilik (1, III c., s. 317).

Mənlik – 1. Bir şəxsin öz varlığı, öz halı. 2. Öz ləyaqətini dərk etmə, öz şəxsiyyətinin qiymətini bilmə, heysiyyət, şərəf (1, III c., s. 340)".

Bəs "milli şüur" dedikdə nə başa düşməliyik? "Azərbaycanda milli şüur məsələsi: tarix və cağdaşlıq" adlı məqalədə bu suala belə cavab verilir: " Milli şüur milli mənəvi dəyərləri özündə əks etdirən bir anlayışdır. Şüur anlayışı nə qədər ümumidirsə, milli şüur istilahında həm ümumilik, həm də xüsusilik vardır. Milli şüur bir növ fərdi şüurla ümumi şüur arasında əlaqələndirici keyfiyyətə malikdir. Çünki milli şüurda bir fərdin təmsil olunduğu konkret etnik, dini, mədəni xüsusiyyətlərlə yanaşı, ümumi mahiyyətli bəşəri dəyərlər də öz əksini tapa bilər. Yəni hər birimiz bir tərəfdən konkret bir millətin, dinin, mədəniyyətin nümayəndəsi olduğumuz halda, digər tərəfdən bəşəriliyə aid əlamətləri də daşıyırıq. Bu mənada, milli şüur - milli ruh yalnız nəsil, qan birliyi əsasında formalaşa bilməz. Milli şüur milli ideologiyanın formalaşmasında çox mühüm rol oynaya bilər. Yəni türklüyümüzlə yanaşı, islamlılığı, çağdaşlığı və azərbaycanlılığı ifadə edən yeni bir milli şüura ehtiyacımız var" (2).

Məqalədə daha sonra diqqət aşağıdakı fikrə cəlb edilir: "Burada türklük dil, mədəniyyət və etnosla, azərbaycanlılıq vətən və dövlətçiliklə, islam dini inac və etiqadla, müasirlik yeniləşmə və zəmanənin tələbləri ilə bağlıdır.

Ona görə də, milli şüur, milli ideya dedikdə, onu yalnız etnik mənada başa düşüb, yalnız türkçülük kimi yozmaq doğru deyildir. Türkçülük milli şüurun biri hissəsidir. Doğrudur, ancaq aparıcı hissəsi və nüvəsidir. Buna səbəb də odur ki, milli şüurun formalaşması hər şeydən öncə dil, mədəniyyət və qan-nəsil birliyi (etnos) ilə bağlıdır. Hər bir insan danışdığı dilin milli varlığıdır. Elə bir varlıq ki, özünü onunla ifadə edir. Bu baxımdan türk dilində (Azərbaycan) danışan və təhsil alan hər bir Azərbaycan vətəndaşı (türk və türk olmayanlar) özünü həm türk (çoxsaylı Azərbaycan türkləri), həm də azərbaycanlı (türklər və azsaylı etnik qruplar) kimi qəbul edir. Bu bütövlük nəticəsində yaranan azərbaycanlılıq milli şüurun özünüdərk nümunəsidir. Deməli, milli şüur formalaşdırılarkən dil amili birinci yeri tutur. Mədəniyyət isə milli adət-ənənələrlə bağlıdır. Burada milli mentalitet də çox mühüm rol oynayır" (2).

**Mənəvi şüurun təşəkkülündə və mənəvi davranış təcrübəsinin formalaşmasında mənəvi inamın və mənəvi əqidə böyük rolu oynayır. Nəriman Nərimanovun əqidə anlayışına münasibəti aşağıdakı şəkildə idi: "Əqidə - inanılan şey, etiqad, iman deməkdir. Yəni insan bir şeyə inanır, ona ibadət edir, onu hər şeydən müqəddəs bilib ruhunu, ağlını, tam vücudunu onun yolunda sərf etməyə çalışır. İnsan ya elm, tərbiyə və təcrübənin təsirindən müəyyən bir əqidə sahibi ola bilər" (3, 341).**

Milli və mənəvi mədəniyyətlə bağlı nə demək olar?

M.J. Manafovanın qənaətincə, "Bütöv bir sistem kimi mədəniyyət iki formada anlanılır: maddi mədəniyyət və mənəvi mədəniyyət. Mədəniyyətin bu iki formaya bölünməsi iki mühüm istehsal – maddi və mənəvi istehsalın mövcudluğuna uyğundur.

Maddi mədəniyyət insanın maddi-istehsal fəaliyyətinin bütün sahələrini əhatə edir. Buraya əmək vasitələri, yaşayış və gündəlik məişət əşyaları, geyim, nəqliyyat vasitələri və s. aiddir.

Mənəvi mədəniyyətə isə, mənəvi istehsal sahəsi və onun nəticələri, məhsulları aid edilir. Buraya şüurun bütün sahələri – elm, mənəviyyat, tərbiyə və maarif, hüquq, fəlsəfə, incəsənət, ədəbiyyat, folklor, din və s. aiddir. Həmçinin buraya insanların bir-birilə əlaqəsi, münasibətləri, insanın özünə, təbiətə olan münasibəti də şamil edilir ki, bu da maddi və mənəvi fəaliyyət prosesində məhsulların istehsalını təmin edir" (4).

Müəllif daha sonra yazır: "Bu mənada maddi mədəniyyət aləmi mövcud obyektiv dünyanın "insaniləşmiş" hissəsini, «ikinci kainatı»nı təşkil edir ki, onu həm görmək, həm ona toxunmaq, həm də hiss etmək olur. Sonuncu halda ətirlərin rahiyyəsi qızılgülün ətrindən prinsipial cəhətdən fərqlənir, çünki onların birincisi, insanın düşüncəsi, əqli ilə, digəri isə təbiət tərəfindən yaradılır" (4).

M.J. Manafovanın aşağıdakı qənaətləri də dəyərlidir: "Real həyatda maddi və mənəvi mədəniyyət bir-birindən ayrılmazdır. Nə qədər primitiv olsa da, sırf maddi mədəniyyət yoxdur, onlar, həmçinin mənəvi tərəflər və məqamlarla əhatələnir. Mədəniyyətin maddi və mənəvi başlanğıcları haqqında marksist formulada çox aydın şərh verilir: «Kütlələr tərəfindən mənimsənilən ideyalar maddi gücə çevrilir". Belə bir məqamda sual ortalığa çıxır: bəşəriyyətin müxtəlif inkişaf mərhələlərində bu vəhdət özünü necə büruzə verir? Suala cavab yekdildir: cəmiyyətin inkişafı, demoqrafiyası, texniki imkanların yüksəlməsi, mədəniyyət məhsullarının zaman və məkan çərçivəsində ötürülməsi imkanlarının genişləndirilməsi bu prosesin baş verməsinin başlıca amilləridir" (4).

Milli şüur və milli mədəniyyət istənilən millətin ayrılmaz və çox mühüm əlamətidir. Milli şüur hər hansı etnik birliyə, dövlətə, dilə, mədəniyyətə və ənənələrə malik olan müəyyən maddi və mənəvi dəyərləri subyekt keyfiyyəti kimi özündə birləşdirməsi və ifadə etməsidir. Milli mədəniyyət milli özünüdərkin daşıyıcısı kimi çıxış edir. Daşıyıcı kimi onun rolu mənəvi tələbatları, stimulları və millətin sabitliyi mexanizmlərini və onun həyat fəaliyyətini, müvafiq səciyyəvi keyfiyyətlərini və funksiyalarını təmin etmək üçün əsasları formalaşdırmaqdan ibarətdir.

Mənlik şüuruna yiyələnən şəxs öz davran və rəftar tərzini, hərəkətlərini müstəqil şəkildə seçə bilir, başqa adamlar qarşısında məsuliyyətini anlayır, özünü təhlil və özünümühakimə qabiliyyətinə yiyələnir, özünə gündəlik hesabat verir.

Nəzərdən keçirdiyimiz problem, "milli mənlik" anlayışına aydınlıq gətirilməsini də tələb edir. Məlum olduğu kimi, milli mənlik milli şüurun əsas əlaməti, ayrılmaz tərkib hissəsidir. Mövcud mənbələrdə deyildiyi kimi, "Milli mənliyin əsasını insanın – hər bir fərdin mənsub olduğu millət və ya xalqın onu əhatə edən sosial həyatın bütün sahələrinə bəslədiyi subyektiv əqidəsi təşkil edir. Milli mənliyə vətəni sevmək, doğma yurda məhəbbət bəsləmək, təbii sərvətləri qorumaq və s. ilə bağlı olan sosial keyfiyyətlər daxildir. Milli mənlik şüuru sayəsində millət xalq və etnik qrup maddi və mənəvi sərvətlərinin tarixi inkişaf xüsusiyyətlərini, sosial-etnik cəhətlərini bütün dolğunluğu ilə dərk edir, bunlarla bağlı bu və ya digər hadisəyə öz münasibətini bildirir. Milli mənlik şüuru vəzifəsindən, tutduğu mövqeyindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşında olmalıdır. Mənlik şüuru insanın özünün fikir və hisslərinin, mənafe və məqsədlərinin öyrənilməsinə yönəlir. Bu halda insanın daxili aləmi şüurun obyekti kimi çıxış edir" (5).

Tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması istiqamətində fəaliyyət göstərən ali təhsil müəssisələrinin pedaqoji kollektivlərinin yuxarıda deyilən məsələlərlə tanış olmaları məqsədəuyğundur.

**Problemin aktuallığı.** Tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılmasının mahiyyətinin, məqsəd və vəzifələrinin aydınlaşdırılması özünün aktuallığı ilə fərqlənir.

**Problemin yeniliyi.** Tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılmasının mahiyyəti, məqsəd və vəzifələri diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması problemi üzrə tədqiqat aparan magistrant, doktorant və dissertantlara kömək göstərəcəkdir.

## Ədəbiyyat:

1. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. III c. Bakı: Şərq-Qərb, 2006.
2. Azərbaycanda milli şüur məsələsi: tarix və cağdaşlıq http://modern.az/az/news/49322#gsc.tab=0 Azərbaycanda milli şüur məsələsi: tarix və cağdaşlıq http://modern.az/az/news/49322#gsc.tab=0
3. Nəriman Nərimanov. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1985.
4. M.J. Manafova. Maddi və mənəvi mədəniyyət. Kulturologiya (mədəniyyətşünaslıq) / Mədəniyyət tarixi və nəzəriyyəsi: Ali məktəblər üçün dərslik / M.J. Manafova, N.T. Əfəndiyeva və S.A. Şahhüseynovanın ümumi redaktəsilə. Bakı: Sabah, 2010.
5. http://psixologiya.net/test/20-milli-351252ur-v601-m601nlik-351252uru.html

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
E-mail: tahiraaztu@gmail.com
**Redaksiyaya daxil olub:** 10.12.2018